*Boran Əziz:*

# 400 ildən artıqdır ki, erməni yalanları, böhtanları ayaq tutur, amma yerimir



"Tarix boyu böyük dövlətlər özlərinin işğalçılıq siyasətini həyata keçirmək məqsədilə ermənilərdən bir vasitə kimi istifadə ediblər. İmperialist dövlətlər Osmanlı İmperiyasının torpaqlarını bölüşdürmək, Türkiyəni bir dövlət kimi məhv etmək, onun torpaqları hesabına bufer dövlətlər yaratmaq istəyirdilər. XIX yüzilliyin ikinci yarısında ermənilərin Türkiyə ərazisində törətdikləri qanlı qırğınlar nəticəsində minlərlə dinc əhali öldürüldü. Buna cavab olaraq Osmanlı dövləti xain və dönük erməni silahlı dəstələrinə tutarlı cavab verdi. Bunu görən ermənilər Türkiyə ərazisində istədiklərinə nail ola bilmədikləri üçün məkrli planlarını həyata keçirmək məqsədilə türk dünyasına qarşı apardıqları mübarizənin ağırlıq mərkəzini Qafqaza keçirməyi qərara aldılar. Bu vaxt erməni ideoloqları özlərinin millətçi partiyalarını yaratdılar."

**Bu fikirləri İkisahil.TV-yə müsahibəsində tarixçi alim Boran Əziz bildirib.**

B.Əziz qeyd edib ki, məhz hər il 24 aprel ərəfəsində erməni mətbuatı, erməni diasporu, müxtəlif erməni cəmiyyətləri və lobbisi, eləcə də erməni kilsəsi fəallaşır, müxtəlif dövlətlərin parlamentlərinə "erməni soyqırımı"nın tanınması haqqında müraciətlər göndərir, bu vasitə ilə dünyada nəyəsə nail olmağa cəhd göstərirlər. Hər il uydurulmuş bu oyun gündəmə gətirilir, mərasim keçirilir, xüsusən Avropa ölkələrinin parlamentləri canfəşanlıq göstərərək "layihəni" müzakirəyə çıxarır, gərginliyi daha da artırmağa, özlərinin bir sıra siyasi və iqtisadi maraqları üçün Türkiyəni gözdən salmağa cəhd edirlər. Bu dövlətlər bilmirlər ki, bunların xeyri yoxdur, əksinə, Türkiyənin nüfuzu getdikcə artır. Bütün siyasi maraqları qoyaq bir yana, axı Türkiyə Asiya və Avropa qitələri arasında körpü rolunu oynayan bir ölkədir. Amerika da, Qərb də, dünya da bilir ki, tarixin təsdiq etmədiyi "tarixi hadisə" yazıla bilməz. Almanlar yəhudilərə qarşı həyata keçirdikləri soyqırımı etiraf etdilər. Çünki bu yaşanmış və yazılmış tarixdir, faktlar və sənədlər ortadadır.

B.Əziz vurğulayıb ki, XVII əsrdə müstəmləkəçi dövlət olan Böyük Britaniya ermənilərdən bir alət kimi istifadə etmişdir. İngilis təbliğatı onları istiqamətləndirirdi ki, ərazi əldə etmək üçün harada türk-müsəlman əhalisi gördünüz onları qırın, məhv edin ki, istədiyinizə nail olasınız. Daha sonra isə həmin vasitədən Rusiya imperiyası gen-bol istfadə etməyə başladı. Çar Rusiyası zamanında Van, Qars və Ərzurumda rus konsulu olmuş Mayevski öz xatirələrində göstərir ki, bütün doğu Anadolunu başdan-başa gəzib dolaşmışdır. O qeyd edir ki, harada erməni ölürdüsə, günah ancaq onun özündə idi.

B.Əziz diqqətə çatdırıb ki, Emənistanın təməli soyqırımı ideologiyasının üzərində qurulub. Çörəyi türk dünyasına qarşı terrordan, günahsız insan qanı tökməkdən çıxan erməni cinayətkarları 1970-ci illərdən başlayaraq hər il aprelqabağı xaricdəki türk nümayəndəliklərinə və səfirlərinə qarşı terror aksiyaları həyata keçiriblər. Məqsədləri necə olursa-olsun, uydurma "soyqırımı" Türkiyəyə qəbul etdirmək, ondan külli miqdarda təzminat almaq və Türkiyə torpaqlarında "böyük Ermənistan" yaratmaq yuxusunu çin etməkdir. Erməni quldurları 1916-cı il mayın 11-də Türkiyənin Malazgird şəhərində 20 min adamı vəhşicəsinə öldürmüş, mayın 22-də isə Van şəhərində 15 min adamı məhv etmiş, 1000 körpəni diri-diri boğmuşdular. 1918-ci ilin yanvarında Türkiyənin Qətranlı kəndində 1400 uşağı bir yerə yığaraq diri-diri yandırmışlar. Martın 17-də Urmiyada 10 min dinc sakini öldürmüşlər. Castin Makkarti və Karolin Makkarti qardaşlarının tədqiqatına görə, XX əsrin əvvəllərində ermənilərin törətdikləri qanlı hadisələr zamanı 2,5 milyon müsəlman öldürülmüşdür. Erməni millətçiləri və onların daşnak rəhbərləri o vaxtdan bu günə qədər bar-bar bağıraraq hadisələri saxtalaşdırır və 24 aprel 1915-ci ili "erməni soyqırımı" kimi qələmə verməyə çalışırlar. Təəssüf ki, tarixdən bixəbər olanlar, o zamankı şəraiti bilməyənlər və ya o hadisələrin obyektiv təhlilini bacarmayanlar bu yalançı təbliğata inanırlar. Ancaq fakt faktlığında qalır, tarix olanların canlı şahididir. Faktlar isə göstərir ki, ermənilər türklərə qarşı soyqırımı siyasəti aparmışlar. Çünki türklərin itkisi qat-qat çox olmuşdur. Bunu ermənilər də çox yaxşı bilirlər. Ermənipərəst qüvvələr həmin hadisələrdən bir vasitə kimi bu gün də faydalanmağa çalışırlar. Əslində isə o vaxt Türkiyədə öldürüldüyü iddia edilən qədər erməni yaşamırdı. Bu rəqəmin erməni tarixçilərinin bir qismi 600 min, bir qismi isə 1 milyon olduğunu desələr də, rus mənbələri bunun yalan olduğunu bilə-bilə bu rəqəmin 2 milyon olduğunu yazırlar. Hazırda erməni lobbisi 1915-ci il köçü zamanı 1,5 milyon ermənənin qətlə yetirildiyini iddia edir. Halbuki həmin dövrün erməni, türk və digər mənbələrin irəli sürdükləri rəqəmlər əsasında I Dünya müharibəsi ərəfəsində Anadoluda 1,2-1,4 milyon ermənənin yaşadığı məlum olur. Erməni tarixçisi C.Kirokosyanın məlumatına görə, ermənilərin üçdə ikisi köçürülməyə məruz qalıb. Bu isə köçürülən ermənilərin ümumi sayının 1 milyondan da az olduğunu deməyə əsas verir. Belə olan təqdirdə 1,5 milyon ermənənin öldürülməsi necə mümkün ola bilərdi? Elə erməni və rus yazarlarının 1915-ci il "erməni soyqırımı" ilə əlaqədar gətirdikləri rəqəmlərin müxtəlifliyi bu hadisənin uydurma olduğuna əyani sübutdur. Buradan da görünür ki, Türkiyəyə qarşı yönəldilən qondarma "erməni soyqırımı" iddiaları Ermənistan dövlətinin və onlara havadarlıq edən bəzi ölkələrin siyasi ambisiyalarına xidmət edir.

B.Əziz əlavə edib ki, bəs nəyə görə ermənilər böhtandan əl çəkmir və "erməni soyqırımı"nı türklərin boynuna zorla qoymağa çalışırlar? Sualın cavabı ABŞ-dakı erməni liderlərindən biri Ross Vartanyanın fikirlərindən aydın görünür: O deyir: "Soyqırım layihəsi qəbul edilsəydi, bunu əldə rəhbər tutub, Türkiyədən əvvəlcə təzminat, sonra da Qara dəniz sahillərinə sərhəd olan Şərqi Anadoluda bir erməni dövlətinin qurulması üçün torpaq tələb edərdik". Deməli, daşnaklar "böyük Ermənistan" ideyasından hələ də əl çəkməmişlər, avantürist məqsədlərini həyata keçirmək üçün böhtançı və uydurma "erməni soyqırımı"nı əldə bayraq edərək ümidlənirlər. Yəqin ki, buna da bir gün son verəcəklər. Çünki 400 ildən artıqdır ki, erməni yalanları, böhtanları ayaq tutur, amma yerimir.

**Şəmsiyyə Əliqızı,**
***"İki sahil"***